# Hər kədəri səadət, hər sevinci qəm izlər, Əsil könül həm qəmi, həm sevinci əzizlər

**Vətən üçün böyüdülənlər**

İnsanlar arasında dözümü, mətinliyi, sevgisi, nifrəti, inamı, inadı ilə yaşayanlar öz istək və arzuları uğrunda mübarizə aparanlardır. Qətiyyətli, iradəli olan hər kəs öz arzu və istəklərini reallaşdırar və Tanrı ona yardımçı olar.

Məhz iradəsi güclü olanlar, mübarizlər adlanar. Mübarizlik isə insanın mənəviyyatının zənginliyindən güc alar.

Mənəviyyatın zənginliyi təhsillə qazanılmır. O, insanın qanındacanında yaranır və irsən də nəsillərinə ötürülür. Bu danılmaz faktdır. Elə bu faktlara istinadən də oxucularımıza bir ailəni tanıtmaq istərdim.

Nadir Səfərov Qəbələ rayonunun Qəmərvan kəndində yaşamışdır. Öz izi, həyat tərzi zəhmətsevərliyi, insanlar arasında dürüstlüyü, sözübütövlüyü, mehriban və qayğıkeşliyi ilə onu tanıyanlar arasında hörmət qazanmışdır.

Ailəsində də bu xarakter və xüsusiyyətləri daima hiss olunardı.

Ailədə 5 uşaq böyümüşdü. Böyüyə-kiçiyə layiq olduğu tərzdə hörmət və qayğı hissi ailənin hər bir üzvü üçün xarakterik idi.

İnsanlarla davranış, torpağa sevgi, Vətənə qeyrət borcu hələ körpəlikdən bu ailənin övladlarında təzahür etmişdir.

Oğullar Vətənin oğul kimi məslək daşı, qızlar baş tacı idi. Bütövlükdə isə Nadir kişi övladlarını Vətənin " sipər qalası " kimi, əsil dirəkləri kimi böyüdürdü.

Asim ailənin 3 oğul övladlarından biri idi. O, 1975-ci ildə Qəmərvan kəndində doğulmuşdur. Orta təhsilini bu kənddə almışdır. Hələ uşaqlıqdan yaşadığı kəndin təbiətinin əsrarəngiz gözəlliyi onu məftun edərdi. O, Vətəninin tam olaraq kəndinin hər qarışından başladığını düşünər və sevərdi.

Asimin yeniyetməlik çağları erməni mənfurlarının torpaqlarımızı işğal etməsi dövrünə təsadüf etmişdi. Gözəlliklər məskəni olan Vətən torpaqları işğal olunduqca, erməni faşistlərinin qanlı qətl və faciələri onu məyus edirdi və Asim daha tez "böyümək", "əsgərlik yaşına çatmaq" istəyirdi. Çünki qəlbində vətən sevgisi qədər onun düşmənlərinə nifrət hissi var idi...

Nadir kişi o illərdə kənddə məsul vəzifə sahibi idi. Vətənin darda olduğu bir vaxtda o yaş həddi tam olan kimi iki oğul balasını cəbhə bölgəsinə səfərbər olunanların si-




yahısına yazdırdı. Asim 1993-cü il noyabr ayının 11-də ordu sıralarına xidmətə yollandı. O, Füzuli rayonu bölgəsində, Abdurahmanlı kəndi uğrunda gedən döyüşlərdə döyüşmüşdür. 1994-cü il yanvar ayının 26-da itkin düşmüşdür.

**Hər qapı döyüləndə...**

Ailənin oğul balalarından biri hərbi xidmətdən tərxis olunaraq kəndinə döndü. Ailə buna görə nə qədər sevinsə də, həsrət hissi qəlblərindən heç uzaqlaşmadı. Televiziya, radio, qəzet xəbərlərini daima izlədilər; bəlkə cəbhə bölgəsində itkin düşənlər haqqında məlumat verilər deyə. Hərbiçiləri görən kimi onlardan soraqlaşdılar Asim balanı. Hər qapı döyüləndə ürəklərə həyacan doldu, gözlər qapıya dikildi. Hər məclisdə gözlər gözlərə dikildi məlulcasına, qulaqlar səsə; ürəklər daima səksəkəli döyünürdülər. Ancaq Asim haqqında heç bir məlumat əldə edilə bilmədi. Yuxularda, xəyal dünyasında məskən saldı Asim. Ancaq, onun ölümünə inanmadı Xeyransa ana. İnanmadı Nadir ata...

Qardaşları, bacıları... Nə vaxtsa onun da xəbəri çıxacağına, bir gün qapı açılıb gələcəyinə inam hissi ilə yaşadı hər kəs.

İllər keçdi... Bu illərin hər anı bir əsr oldu ailə üçün. Axı Asim illər öncə müdafiəsinə getdiyi tor-



paqlar düşmən işğalında idi... Məhz bu ağrı, acı Nadir kişinin qəlb yükünü daha da artırırdı. Kişilər ağlamaz deyirlər; kişilər qəlbində ağlar və onların göz yaşları çox zaman gizli-gizli qəlbinə axar. Qəlbən ağlayan kişilər hər kəsdən qaçar və sakit bir güşə tapan kimi göz yaşları çaya dönər... qəlbi ilə dənizə.... 15 il beləcə həyat sürdü Nadir kişi Asimsiz...

Və bir gün dünyasını dəyişdi... Dəyişdi ki, bəlkə də oğlu ilə ikinci dünyasında görüşə...

Xeyransa ana isə oğlunu 30 ildir axtara axtara yaşayırdı. Hər övladın öz sevgisi, öz istəyi olur. Heç bir varlıq kimi isə əvəz etmir. Hər kəsin də özünəməxsus sevgisi olur, sevilir əzizləri tərəfindən. Asim acısı əzizlərinin qəlbində əvəzolunmaz "ölçüdə" idi. İtkin düşən Asim əzizləri ilə yuxularında danışır, görüşürdü.

**- Yuxu gerçəkliyi -**

Xeyransa ana ilə görüşəndə öyrəndik ki, o son vaxtlar Asimi tez-tez yuxularında görürmüş. Sonuncu yuxusu isə ona bir əminlik bəxş etdi sanki...

Həmişə oğlunun sorağında olan ana son vaxtlar heç olmasa onun nəşinin tapılması, sümüklərinin belə doğma kəndində dəfn olunmasını arzulayırdı. Xüsusilə 2020-ci il Vətən Müharibəsində Zəfər qazanıldıqdan sonra.

31-ci il idi Asimin yoxluğu. Bu illər ərzində çəkdiyi hər acı anlara, saniyələrə vurulsa...

Axı şəhadətə qovuşanlar ana və atalarının aldığı nəfəslərində yaşayırlar!..

2020-ci ildə Xeyransa nənənin 3 nəvəsi- 1 qız, 2 oğul nəvəsi Vətən Müharibəsində iştirak etmiş, şəhidlərimizin öcünü almaq, məğlub sözünü lüğətdən silmək, vətən torpaqlarını və Asim kimi igidlərimizin nəşini işğaldan qurtarmaq üçün igidliklə döyüşmüşlər. Ən maraqlısı odur ki, bu gənclər Asim döyüşdüyü və uyuduğu məkanda olmuşlar. Bacısı da yuxusunda "Bacı, elə sənin 10 addımındayam da..." deyə Asimin səsini eşitmişdi. Atası da illər öncə Asimi, "axtararkən" məhz həmin ərazidə dəfələrlə olmuşdur...

**Qardaş sözü**

Asim necə biri idi soruşduqda qardaşı dedi ki, sakit, gülərüz, mehriban... onu taniyanlar həmişə belə xatırlayırlar onu... O qədər az yaşadı ki... Bəlkə gənclik illərini yaşasaydı daha çox və yaxından tanınardı əməlləri ilə. Ancaq indi... hərbi geyimli şəklindən qəmli gözlərlə baxır hər kəsə. Bəlkə də 31 ilin həsrətini çəkməkdən qəm dolub o gözlərə. Ata yurduna, ana nəfəsinə qovuşmağın həsrətindən...

Asim sentyabrın 30-da dünyaya göz açmışdı. 1982-ci ildə kənd məktəbinin I sinifinə daxil olmuş 1990-cı ildə 9-cu sinifi bitirərək sənədlərini Qəbələ rayon Texniki Peşə məktəbinə verərək orada təhsilini davam etdirmiş, çilingərlik peşəsinə yiyələnmişdir. Orta məktəbdə yaxşı oxumasına rəğmən əvvəlcə peşə öyrənmək və çalışa-çalışa ali təhsil almaq arzusunda idi. Bu isə onun zəhmətkeşliyindən irəli gəlirdi.

I Qarabağ müharibsəi başlanan zaman Vətənin müdafiəsinə gedən Asim qanlı döyüşlərdə iştirak etdi və qorxmazlığı, döyüş şücaəti ilə fərqləndi. Bunu onunla döyüşən silahdaşları söyləmişdi. O, itkin düşəndən sonra onu atam rəhmətlik illərlə axtardı... və oğul həsrətiylə də dünyadan köçdü. Anam isə gözləri yollarda, qapıda... qulağı səsdə... ürəyi daim bala həsrətli döyüntüdə...

**Şəhid Vətənə dönür...**

Əsil könül həm qəmi, həm sevinci əzizlər!... Şair Məmməd Araz çox həyati deyim yazmışdır. İtkin düşən övladının qəmini yaşayan ana onun nəşinin belə tapılmasını arzulayırdı. Övladının illərdir vətənindən-obasından uzaq düşən sümüklərinin belə öz elində, doğulduğu torpağa qismət olmasını, cismən olmasa da, ruhunun sevinməsini arzulayırdı, ana və Asimin əzizləri. Qəlbində həm sevinci, həm qəmi əzizləyən ana bu istəyin sevincini "yaşadı"...

2024-ccü ilin aprel ayında Beyləqan rayonunun Şəfəq qəsəbəsində Peyğəmbərlər qəbiristanlığında digər şəhidlərlə birgə Asimin də nəşi aşkar olunmuşdur.

Nadir kişinin qapısına dövlət bayraqları - Azərbaycan və Türkiyəni təmsil edən bayraqlar sancılmışdı... Qəbələ 31 ildən sonra şəhidini qarşılayırdı - 7 may 2024-cü ildə. Qəm sevincə qatışmışdı. Həsrətə son qoyulmuşdu... Gözlər qapıdan yığılmışdı. Azərbaycan qadının - anasının dözüm və xanımlığının gücünə bir bax! Oğlunun nəşini qəbul edərkən bir gözü acı göz yaşında, bir gözü sevincli...

Axı igid oğlu obasına döndü!... Şəhid "rütbəsilə" , qəhrəman adıyla elinə dönən igidi hər kəs ananın yaşadığı hisslərlə qarşılayırdı...

Asim 31 il sonra doğma Qəmərvanında torpağa tapşırıldı. Məkanın cənnət olsun, Şəhidim!

**Bibixanım İSAYEVA.**

# Kapitan Əhmədov fəxrimizdir

Vətənpərvərlik milli-mənəvi zənginlikdən irəli gəlir. O insan ki, vətəndaş məfhumunu doğru-düzgün anlayır və mənasını dərk edir, o zaman o vətənpərvər və mənəviyyatca zəngin biri sayılır. Ən başlıcası Vətən, torpaq sevgisi, xalqa bağlılığı olan kəslər milli-mənəviyyatca zənginlərdir.

Vətən darda olan zaman «mamır olub qayalarda bitmək» istəyənlər əsil vətəndaşlardır. Vətənin harayına səs verənlər onun igid və qəhrəman, nər oğullarıdır. O oğullar ki, ölümün «gözünə» göz qırpmadan baxar, canını Vətənə sipər, çox zaman da qurban edərlər. İnsanlığın ən ali rütbəsinə yiyələnərlər: şəhadətə qovuşaraq şəhid adı alarlar.

Torpaq uğrunda, Vətənin müdafiəsində öz sağlamlığını itirən, ayrı-ayrı bədən üzvlərini öz məsləyi, öz Vətəni uğrunda qurban verənlər isə qazilərdir. O qazilər ki, həm də onlar canlı şəhidlərdir. Vətənin hər guşəsinə, kiçik bir nöqtəsinə belə atılan mərmilər, dağılan evlər, kəndlər, şəhərlər, binalar, insan yaşamına aid məhv olan, yağmalanan hər şey qazilərin göz önündə. Ən başlıcası isə igid silahdaşlarının gözləri



önündə qanına qəltan edilməsi, faciəli terrorlar və onların qurbanlarının döyüş şücaəti onların göz yaddaşında, qan yaddaşında...

Bax, belə oğullardan biridir Çingiz.

Çingiz Ağakərim oğlu Əhmədov 1992-ci il mayın 2-də Qəbələ rayonunun Məmmədağalı kəndində doğulmuşdur. 1998-ci ildə kənd məktəbinin birinci sinfinə qəbul olunmuş, 2006-cı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdur. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Hərbi Məktəbinə daxil olmuşdur. O, hazırda Hərbi Hava Qüvvələrinin kontingentində kapitan vəzifəsində çalışır.

Çingiz Əhmədov aprel və iyul döyüşləri və Vətən Müharibəsinin iştirakçısıdır.

O, əvvəllər Azərbaycan Respublikasının yaranmasının 10 illiyi, 90 illiyi, 100 illiyi, Azərbaycan ordusunda qüsursuz xidmətinə görə III dərəcəli, II dərəcəli, I dərəcəli medalları ilə təltif olunmuşdur.

Döyüşlərdə isə igidliyinə və döyüş şücaətinə görə bir çox medal və təltiflərlə mükafatlandırılmışdır.

Çingiz Əhmədov bacarıqlı hərbçi, döyüşçü, əsil vətənpərvər və layiqli eloğludur.

O, hər bir vətənpərvər insanın qürur və fəxridir.

**BİBİXANIM.**

# Heydər Əliyev və Azərbaycanda muzey işinin təşkili

(Əvvəli 5-ci səhifədə).

etdirən hər nə varsa onu göz bəbəyi kimi qorumağa, ciddi şəkildə mühafizəsi üzrə dövlət qayğısının artırılmasını təmin edilməsi məqsədilə bir sıra tədbirlər keçirmişdir. Bu gün Qəbələ Dövlət Bədii Qoruğuna daxil olan 2500 illik tarixi əks etdirən Qafqaz Albaniyasının paytaxtı antik Qəbələnin izlərini özündə əks etdirən hər bir kərpici, daşı, torpağın dərin qatlarından əldə olunan qədim nümunələri canlı şəkildə tamaşa etməyi, keçmişimizi öyrənməyi əldə etdik. Bütün həyatını xalqına, vətəninə həsr edən müdrik insan, dahi rəhbər Heydər Əliyev sözünü əməli ilə təsdiq etdi və "Mənim həyatımın məqsədi Azərbaycan, Azərbaycan xalqıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam " ifadəsini tam şəkildə həyata keçirdi. Bununla da müdrik rəhbər xalqa böyük bir miras, dəyərli xəzinə bəxş etdi. Ulu öndərin bu istiqamətdə əməli fəaliyyəti müstəqil Azərbaycanın bu gününə böyük töhvə verdi. Heydər Əliyevin vaxtilə Azərbaycan üçün, xalq üçün əzm və fədakarlıq göstərərək bu gün mədəni sərvətlərin mühafizəsi istiqamətində muzeylərin diqqət və qayğıya ehtiyacı olduğunu, dünənimiz və bu günümüzlə bağlı dəyərləri gələcək nəsillər üçün mühafizə edən muzeylərin gördüyü işləri göz önünə qoydu. Bu gün mədəni sərvətlərin mühafizəsi işində ən güvənli müəssisə olan muzeylərin daha da irəliləməsi üçün Heydər Əliyevin yolu ən doğru yoldur.

**Bəxtiyar VƏLİYEV,**
**rayon tarix-diyarşünaslıq muzeyinin direktoru.**